# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

22 fevral 2018-ci il
Cümə axşamı

№ 7(3372)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN DÖRDÜNCÜ TOPLANTISI KEÇİRİLİB

## *AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TOPLANTIDA İŞTİRAK EDİB*




Fevralın 15-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Tədbirdə, həmçinin Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirilib.

Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söyləyib.

Qeyd olunub ki, 2015-ci ildə Azərbaycan Cənub Qaz Dəhlizi Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış edib, çünki səylərin əlaqələndirilməsinə böyük ehtiyac vardı. Əvvəlki illərdə Azərbaycan qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə birlikdə mühüm enerji layihələri həyata keçirib. Lakin bu dəfə daha çox ölkə və şirkət cəlb olunmuşdu, ona görə də əlaqələndirməyə, maksimum səmərəliliyə ehtiyac var idi. Avropa Komissiyası bu təşəbbüsü dərhal dəstəkləyib və dördüncü toplantı Avropa Komissiyası və Azərbaycan tərəfindən təşkil olunub.

Cənab Prezident bildirib ki, bu gün bizim artıq təkcə Azərbaycan, Gürcüstan, Türkiyə kimi üç ənənəvi müttəfiqi deyil, daha çox ölkəni əhatə edən güclü regional əməkdaşlıq formatımız var. Ötən görüşdən sonra keçən dövr ərzində Cənub Qaz Dəhlizinin həyata keçirilməsində əhəmiyyətli irəliləyiş əldə olunub. Cənub Qaz Dəhlizinin 4 elementinin hamısı ilə bağlı irəliləyişə nail olmuşuq. "Şahdəniz-2" yatağı üzrə işlərin 99 faizdən çoxu tamamlanıb. Bir il əvvəl bu rəqəm 90 faiz olub. Cənubi Qafqaz Boru Kəməri ilə bağlı işlərin təxminən 95 faizi tamamlanıb, bir il əvvəl bu rəqəm 90 faiz olub. TANAP-ın icrası 95 faizə yaxınlaşır, bir il əvvəl bu 70 faizə yaxın olub. TAP-ın icrası bir il əvvəlki 34 faizlə müqayisədə 70 faizə yaxın tamamlanıb. İyirmi il bundan əvvəl Azərbaycan, Gürcüstan və Türkiyə arasında yaradılmış regional əməkdaşlıq həqiqətən də regionumuzda və Avropada enerji sahəsində inkişafda mühüm rol oynayıb. Bu regional əməkdaşlıq təkcə nəhəng, genişmiqyaslı enerji layihələrinin həyata keçirilməsinə yol açmayıb, həm də regionda sabitlik, proqnozlaşdırılma imkanı və çox səmimi əməkdaşlıq yaradıb.

"Cənub Qaz Dəhlizi" layihəsi ölkəmizə yeni faydalar verir. Azərbaycan iqtisadiyyatı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq, iqtisadiyyatı tamamilə dəyişmək üçün öz enerji ehtiyatlarından səmərəli şəkildə istifadə edib. Hazırda ümumi daxili məhsulun mütləq əksəriyyəti özəl sektorun payına düşür. Son 15 ildə iqtisadiyyatımız 3 dəfədən çox, ümumi daxili məhsul 3,2 dəfə artıb. Biz işsizlik və yoxsulluğu azaltmaq üçün enerji ehtiyatlarından düzgün şəkildə istifadə etməyə müvəffəq olmuşuq. Son 15 ildə əhalimizin 1,5 milyon nəfər artmasına baxmayaraq, işsizlik səviyyəsi çox aşağı – 5 faizdir. Yoxsulluq səviyyəsi 5,4 faizdir, savadlılıq səviyyəsi 100 faizə yaxındır.




Dövlətimizin rəhbəri daha sonra deyib:

-Biz iqtisadiyyatı şaxələndirmək üçün insan kapitalına investisiya yatırmışıq, iş yerləri açmışıq, müasir infrastruktur layihələri yaratmışıq. 2018-ci il yanvar ayının nəticələri göstərir ki, iqtisadiyyatımız əsasən qeyri-enerji sektorunda inkişaf edir. Burada iqtisadi artım 4 faizə yaxın olub. Yanvarda sənayemizin qeyri-enerji sektorunda iqtisadi artım 8,7 faiz olub. Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsula bərabərdir. İqtisadiyyatın şaxələndirilməsinin ən yaxşı göstəricisi Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsidir. Son qiymətləndirmə göstərir ki, Azərbaycan rəqabət qabiliyyətinə görə dünyada 35-ci yerdədir. İnkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan 3-cü yerdədir. Bizdən əvvəl yalnız 30 inkişaf etmiş ölkə və 2 inkişaf etməkdə olan ölkə var. Bu, o deməkdir ki, biz rəqabətlilik və inkişafa görə 33-cü və 35-ci yerdəyik...

Toplantıdan sonra dövlətimizin başçısı İlham Əliyevin Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç, Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak, Gürcüstanın Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili, İtaliyanın iqtisadi inkişaf nazirinin müavini İvan Skalfarotto ilə görüşü olub.

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 14-də ABŞ Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi vəzifəsini icra edən xanım Syu Saarnionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 14-də Böyük Britaniya Baş nazirinin ticarət elçisi xanım Baronessa Emma Nikolsonu qəbul edib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri fevralın 14-də milli bayramı münasibətilə Liviyanın Milli Barışıq Hökumətinin Başçısı zati-aliləri cənab Faiz Mustafa Al-Sərraca təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Ölkə rəhbərimizin 15 fevral 2018-ci il tarixli sərəncamları ilə Ramiz Yaqub oğlu Rzayev Azərbaycan Respublikası Ali Məhkəməsinin, Qasım Vəli oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin ediliblər.***

❖❖❖❖❖

**Fevralın 15-də dövlətimizin başçısı Florida ştatının Parklend şəhərində məktəbdə törədilmiş silahlı hücum nəticəsində insan tələfatı ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa başsağlığı teleqramı göndərib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 16-da sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Ruhaniyə başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Fevralın 19-da ölkəmizin rəhbəri 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 19-da şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 19-da müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 20-də əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı fevralın 20-də 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri fevralın 20-də Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında sərəncam imzalayıb.**

# ONLARIN XATİRƏSİ
## HƏMİŞƏ ƏZİZ TUTULACAQ

**Azərbaycanın XX əsr tarixinin ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımının 26 ili tamam olur.**

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5:00 radələrində Xocalı tam alova büründü. Xocalılar Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdilər...**

Ana dili hər bir xalqın milli sərvəti, varlığının təsdiqi, millətin formalaşmasında vacib amillərdən biridir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə ana dilində öz əksini tapır. Dil həm də, çətin tarixi-siyasi dövrlərdə millətin varlığını sürdürməsi üçün əsas vasitədir...

*Bax səh.2.*

# ONLARIN XATİRƏSİ
## HƏMİŞƏ ƏZİZ TUTULACAQ

**Azərbaycanın XX əsr tarixinin ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımının 26 ili tamam olur.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5:00 radələrində Xocalı tam alova büründü. Xocalılar Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdilər. Amma bir günün içində yer üzündən silinən şəhərin sakinlərdən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 nəfər qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü.




Xocalı şəhərinin mühasirəsinə hələ 1991-ci ilin oktyabrında başlanmışdı. Xankəndi ilə Əsgəran arasında strateji yer olan Xocalının ələ keçirilməsi ermənilər üçün müstəsna məqsədlərdən olmuşdur. 1991-ci il oktyabrın 30-da Xocalı ilə quru əlaqəsi tamamilə kəsilmişdi və ara-sıra görünən vertolyotlar mühasirədə qalan Xocalını Azərbaycanla bağlayan yeganə nəqliyyat vasitəsi idi.

1992-ci il yanvarın 28-də Ağdam-Şuşa reysi ilə uçan mülki vertolyotun Xankəndidən atılan raketlə vurulmasından sonra Xocalı ilə hava əlaqəsinə də tamamilə son qoyuldu. 1992-ci il yanvarın 2-dən Xocalıya hətta elektrik enerjisi də verilmirdi. Şəhər büsbütün təcrid olunaraq taleyin ümidinə buraxılmışdı. Fevralın ikinci yarısından etibarən Xocalı dörd bir yandan erməni yaşayış məntəqələrindən intensiv artilleriya atəşinə məruz qalırdı. Şəhərin mühasirədən çıxarılması üçün kağız üzərində çeşidli planlar cızılsa da onların heç biri gerçəkləşdirilmirdi.

Həmin dövrdə hakimiyyətdə olan antimilli rejimin Qarabağı qorumaq bacarığına malik olmadığı qabarıq görünürdü. Üstəlik, mövcud qüvvələr siyasi intriqaların güdazına verilmişdi.

1992-ci il yanvarın sonu - fevralın birinci yarısında Kərkicahan, Quşçular, Malıbəyli və Qaradağlı kəndlərinin işğalına ölkə rəhbərliyinin göstərdiyi biganəlik Xocalıya münasibətdə də aşkar idi. Kritik vəziyyətdə başını itirən hakimiyyət iflas həddində, müxalifətçilərsə hakimiyyət davasında idi.

Xocalının müdafiəsi üçün mərkəzi hakimiyyət səviyyəsində planlı tədbirlərin həyata keçirilməməsi son nəticədə ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə amansız qətliama şərait yaratmış oldu.

BMT-yə yeni üzv qəbul olunmuş Azərbaycanın həmin dövrdə bu mötəbər təşkilatın prinsiplərinə əsaslanmaqla Xocalıda baş verən faciənin soyqırımı kimi tanınması istiqamətində zəruri tədbirlər həyata keçirməməsi də olduqca üzücü və təəssüfləndirici faktdır. Halbuki BMT Baş Məclisinin 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş «Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiyanın 2-ci bəndində göstərilən şərtlər Xocalı faciəsinin məhz soyqırımı adlandırılmasına tamamilə imkan yaradırdı.

Dövlətin başında duranlar hadisədən sonra xalqın qəzəbindən qorxaraq onun miqyasını kiçiltməyə çalışmış, əsl həqiqət barədə ictimaiyyətə yalan məlumat verilmişdir. Xocalı faciəsinin doğurduğu ümumxalq narazılığı dalğası üzərində hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü də hadisəyə siyasi-hüquqi qiymətin verilməsində maraqlı olmamışdır. Hətta 1993-cü il fevralın 23-də imzalanmış «Azərbaycana qarşı edilmiş vəhşiliklərin açıqlanması haqqında» fərman da kağız üzərində qalmışdı.

Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda baş verən hadisələri dərindən təhlil edərək Xocalı qətliamına ilk dəfə siyasi qiymət verildi. 1994-cü il fevralın 24-də ümummilli lider Heydər Əliyevin imzaladığı fərmanla həmin gün xalqımıza qarşı törədilən soyqırımı aktı kimi qeyd edilməyə başlandı. Xocalı hadisələrini həm faciə, həm də xalqımızın qəhrəmanlıq salnaməsi adlandıran ulu öndər şəhərin müdafiəçilərinin xidmətləri ilə bağlı sərəncam da imzaladı, soyqırımın ildönümündə xocalılılarla görüşdə isə bu hadisəni əsrin ən dəhşətli faciəsi adlandırdı.

Ümummilli lider Heydər Əliyevin «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında» 25 fevral 1997-ci il tarixli sərəncamı ilə hər il fevral ayının 26-da saat 17:00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Məhz bu cür yanaşmadan sonra aparılan təbliğat öz nəticəsini verdi. Ümummilli liderin səyi ilə faciə lokal məkandan çıxaraq beynəlxalq səviyyədə tanınmağa başlandı, Xocalı soyqırımı ilə bağlı dünya ictimaiyyəti yetərincə məlumat əldə etdi. Xaricdə yaşayan soydaşlarımız bu işə cəlb olundu. Nəticədə isə Ermənistanın təcavüzü, onun işğalçılıq siyasəti, Azərbaycan xalqına qarşı törətdiyi vəhşilik, bir sözlə, o günə qədər dünyaya naməlum qalan çox həqiqətlərin üstünə işıq salındı.

*Ardı 3-cü səhifədə.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI



**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri Əbdüləziz bin Səud bin Naif bin Əbdüləzizin dəvəti ilə bu ölkədə ikigünlük rəsmi səfərdə olub.**

Fevralın 19-da Azərbaycan nümayəndə heyəti ilə Səudiyyə Ərəbistanı Krallığının daxili işlər naziri arasında görüş keçirilib. Krallığın daxili işlər naziri Əbdüləziz bin Səud bin Naif bin Əbdüləziz dəvətini qəbul edib rəsmi səfərə gəldiyinə görə azərbaycanlı həmkarına təşəkkür edərək ölkələrimiz arasında son illər bütün sahələrdə əməkdaşlığın genişləndiyini vurğulayıb.

Cənab Ramil Usubov rəsmi dəvətə, səmimi qəbula və göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edib, bu səfərin nazirliklərarası əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Qədim tarixə və mədəniyyətə malik xalqlarımızın ənənəvi dostluq münasibətlərinə toxunan nazir Ramil Usubov bu əlaqələrin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanının Kralı, İki Müqəddəs Ocağın Xadimi Salman bin Əbdüləziz Al Səudun siyasi iradəsi sayəsində dinamik inkişaf etdiyini məmnunluqla diqqətə çatdırıb.

Görüşdə dövlətlərarası müqavilə-hüquqi bazasının təkmilləşdirilməsi çərçivəsində iki ölkənin Daxili İşlər nazirlikləri arasında işbirliyinin, cinayətkarlıqla mübarizədə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan hökumətlərarası protokol imzalanıb.

Səmimilik və işgüzar şəraitdə keçən görüşdə təhlükəsizlik sahəsində əməkdaşlığın mövcud vəziyyəti, prioritet istiqamətləri barədə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Səfərin ikinci günü Səudiyyə Ərəbistanının Kralı, İki Müqəddəs Ocağın Xadimi Salman bin Əbdüləziz Al Səud Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu, bütün istiqamətlərdə, o cümlədən hüquq-mühafizə sahəsində uğurla inkişaf etdiyini bildirən Kral beynəlxalq arenada ölkəsinin Azərbaycanı tam dəstəklədiyini vurğulayıb. Eyni zamanda, islam ölkələri arasında həmrəyliyin bərqərar olmasında daim böyük səylər göstərən dostu və qardaşı – Prezident İlham Əliyevə səmimi salamlarını çatdırmağı xahiş edib.

Yüksək diqqətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən nazir Ramil Usubov keçirdiyi görüşlər, aparılan danışıqlar barədə Səudiyyə Ərəbistanının Kralına məlumat verib, bu səfərin ölkələrimiz arasında möhkəm təməllərə söykənən əlaqələrin dərinləşməsinə, xalqlarımızın və dövlətlərimizin mənafeyinə xidmət etdiyini bildirib.

Qəbulda və görüşlərdə ölkəmizin Səudiyyə Ərəbistanındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev iştirak edib.

*20 fevral 2018-ci il.*



**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Gürcüstanın Baş nazirinin müavini, daxili işlər naziri Giorgi Qaxaria ölkəmizə ikigünlük işgüzar səfərdə olub.**

Fevralın 15-də daxili işlər naziri R.Usubov gürcü həmkarı G.Qaxarianı qəbul edib. Səmimilik və qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüş zamanı nazirlər xalqlarımız arasındakı dostluğun qədim tarixə malik olduğunu, ikitərəfli münasibətlərin, o cümlədən Daxili İşlər nazirlikləri arasında əlaqələrin hər iki ölkə rəhbərliyinin siyasi iradəsinə, müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq uğurla inkişaf etdiyini, belə görüşlərin əməkdaşlığın daha da dərinləşdirilməsinə töhfə verdiyini bildiriblər. Təmsil etdikləri ölkələrdə cinayətkarlıqla mübarizənin vəziyyəti və kriminogen durum barədə məlumat verən nazirlər onu da məmnunluqla vurğulayıblar ki, ictimai asayişin qorunmasının yüksək səviyyədə təşkili, daxili sabitlik və təhlükəsizliyin təmin olunması, bütün sahələrdə olduğu kimi, eyni zamanda hər iki respublikada turizmin inkişafına da öz müsbət təsirini göstərir.

Nazirlər ötən illər ərzində Daxili İşlər nazirlikləri arasında imzalanmış sənədlərin, həmçinin "Azərbaycan Respublikasının və Gürcüstanın sərhəd bölgələri daxili işlər orqanlarının əməkdaşlığı haqqında" Sazişin icrasının xüsusilə sərhədyanı bölgələrin daxili işlər orqanları arasında sıx işbirliyinin və işgüzar mühitin formalaşmasına əlverişli şərait yaratmasından, bunun informasiya və təcrübə mübadiləsində özünü daha qabarıq şəkildə göstərməsindən, transmilli cinayətkarlığın bütün növləri ilə, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində səmərəli əməkdaşlığın ilk növbədə dost və qardaş xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etməsindən məmnunluqlarını bildiriblər.

Problemlərə toxunularkən narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və qanunsuz miqrasiya ilə mübarizənin daim diqqət mərkəzində dayandığı, onlara qarşı səmərəli mübarizənin yalnız birgə səylərlə mümkünlüyü qeyd olunub.

Səmimi qəbula və əməkdaşlığın genişləndirilməsi istiqamətindəki fəaliyyətinə görə Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubova minnətdarlığını bildirən Gürcüstanın Baş nazirinin müavini, daxili işlər naziri Giorgi Qaxaria ikitərfli əlaqələrin inkişafına böyük önəm verdiklərini, bunun üçün gələcəkdə də səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

*15 fevral 2018-ci il.*

# ANA DİLİMİZ
## MİLLİ SƏRVƏTİMİZ

**21 fevral dünyada Beynəlxalq Ana Dili günü kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatı 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə fevralın 21-ni Beynəlxalq Ana Dili günü elan edib.**

Ana dili hər bir xalqın milli sərvəti, varlığının təsdiqi, millətin formalaşmasında vacib amillərdən biridir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə ana dilində öz əksini tapır. Dil həm də, çətin tarixi-siyasi dövrlərdə millətin varlığını sürdürməsi üçün əsas vasitədir.

Əsrlər boyu dilimiz müxtəlif təsirlərə məruz qalıb, əlifbamız dəyişdirilib, bizi kökümüzdən ayırmaq üçün onun başına min oyun gətiriblər.

Ulu öndər 1978-ci ildə dilimizin qorunub-saxlanması istiqamətində tarixi bir uğura imza atdı. Belə ki, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında ilk dəfə olaraq, rus dili ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu əldə edib. Azərbaycan milli dilin rəsmi dil statusuna malik olduğu azsaylı sovet respublikalarından biri idi.

Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb, həmin çoxcildliklərdən biri-ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Dövlət mükafatına layiq görülüb, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə, əslində, ana dilinin nüfuzu bir daha təsdiq edilib.

1993-cü il xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev qısa zamanda ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, stabilləşməsinə nail oldu. Onun xüsusi diqqət yetirdiyi məsələlərdən biri yenə də ana dilimiz oldu.

1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri kimi təsbit edildi. 2001-ci ildə ümummilli liderimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə idi.

Məhz ulu öndərin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili, sözün həqiqi mənasında, bərqərar edildi. Eləcə də latın qrafikasına keçid prosesi başa çatdırıldı. 30 sentyabr 2002-ci ildə isə ulu öndər tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq, işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır.

Ulu öndərin qərarı ilə 1 avqust hər il Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur. Bu, Azərbaycan dili tarixində əlamətdar, önəmli hadisədir.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini bu gün Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Latın qrafikasında kütləvi nəşrlərin meydana çıxması bunun parlaq göstəricisidir.

Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz dövlət başçısının təşəbbüsü ilə baş tutub. Cənab Prezidentin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı həm də əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Bunun da nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Dövlət başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm və uğurlu tədbirlərdən biri də 2004-cü il 13 yanvar tarixində imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında" sərəncam oldu. Ölkə başçısı həmçinin 2012-ci il mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncam imzalayıb.

Minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir.

Bu gün müstəqil dövlətimizin dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması üçün gerçəkləşdirdiyi dil siyasəti bu sahədə əldə etdiyimiz uğurların əsasını təşkil edir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*




# ONLARIN XATİRƏSİ HƏMİŞƏ ƏZİZ TUTULACAQ

Əvvəli 2-ci səhifədə.

Bu gün artıq Azərbaycan hökuməti erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Hər il bu müdhiş faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur. Hər il dünyanın bir neçə ölkəsində Xocalı faciəsi qurbanlarının əziz xatirəsi anılır, piketlər keçirilir, vəhşilikləri əks etdirən fotoşəkillər, filmlər nümayiş olunur, dünyanın nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radio kanallarında verilişlər hazırlanır.

Azərbaycan Prezidenti İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyi barədə demişdir: ***«Bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşlarımız, geniş ictimaiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidir. Bu istiqamətdə görülən işləri razılıqla qeyd etməklə yanaşı, onu da bildirmək istərdim ki, tədbirlər daha əhatəli, planlı şəkildə aparılmalı və əlaqələndirilməlidir».***

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır.

"Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasına Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlanılıb. Kampaniya Xocalı soyqırımının, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi səbəbləri və nəticələri, həmçinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionu və digər ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasının zəruriliyi ilə bağlı beynəlxalq maarifləndirmənin artırılması məqsədi daşıyır. Kampaniyanın fəaliyyəti, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, sağ qalmış ailələrə dəstək göstərilməsi, bu hadisələrin yaddaşlarda yaşadılması, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlib.

Kampaniya qlobal səviyyədə fəaliyyət göstərmək, öz müraciətlərini çatdırmaq üçün müxtəlif kommunikasiya vasitələri və resurslarından, o cümlədən media, internet və canlı tədbirlərdən fəal şəkildə istifadə edir.

Bu kampaniya çərçivəsində İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı ermənilərin Xocalıda törətdikləri mənfur əməlləri "insanlığa qarşı kütləvi cinayət" kimi tanıyıb və üzv dövlətləri bu faciəyə lazımi siyasi-hüquqi qiymət verməyə çağırıb. Dünyanın 10-dan çox ölkəsinin parlamenti, ABŞ-ın 20-dən artıq ştatının qanunverici orqanı Xocalı qırğınını soyqırımı aktı kimi tanıyıb. "Human Rights Watch" təşkilatı bu qanlı faciəni hərbi əməliyyatlar zonasında dinc sakinlərə münasibət haqqında konvensiyanın pozulması və cinayət kimi qiymətləndirib.

Xocalı soyqırımı qurbanlarının xatirəsinə 6 ölkədə 9-dan çox abidə ucaldılıb. Soyqırımının tanınması üçün müxtəlif ölkələrdə petisiyalar təqdim edilir.

Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir. Tarixi faktlar təsdiqləyir ki, «Dənizdən-dənizə Ermənistan» xülyası ilə yaşayanlar xarici havadarlarının köməyi ilə müxtəlif dövrlərdə azərbaycanlılara qarşı amansız terror və soyqırımı siyasəti həyata keçirmiş, etnik təmizləmə siyasəti aparmışlar. Onların Xocalıda törətdikləri amansız qətliam genosid idi. İllər ötsə də, Xocalı faciəsinin qaysaq bağlamayan yaralarından hələ də qan sızır. Xocalı faciəsi bütöv bir millətin sinəsinə çəkilən dağdır. Onun sızıltısı ürəyimizi zaman-zaman göynədir, bizi olanları unutmamağa çağırır.

Xocalı soyqırımının 26-cı ildönümünün qeyd olunması bir daha sübut edir ki, həmin qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik və cinayətin dəhşətləri yaddaşlardan heç zaman silinməyəcək. Çünki Xocalıda baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırım deyil, bəşəriyyət, insanlıq əleyhinə törədilmiş qanlı cinayətdir.

Hər il fevralın 26-da on minlərlə sakin Xocalı soyqırımının ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün bu abidənin önünə toplaşır, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirirlər.

Xalqımız şəhid olmuş soydaşlarımızı daim yad edəcək, onların xatirəsini həmişə əziz tutacaq.

***Natiq Cavadov,***
***polis baş leytenantı***

# QAYĞI DA VAR, NƏTİCƏSİ DƏ

**Ölkəmizin cənub zonasına bu dəfəki ezamiyyət zamanı Neftçala Rayon Polis Şöbəsində də oldum. Gəlişimin məqsədini RPŞ-nin rəisi, polis polkovniki Vüsal Şəbəndiyevə söyləyəndə "İşimiz göz önündədir", dedi: "Buyurun yaxından tanış olun".**

Beləliklə, Neftçala RPŞ-nin 2017-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində gördükləri işlərlə tanış oldum. Öyrəndim ki, ötən il rayon ərazisində 113 cinayət qeydə alınıb ki, onlardan 107-si açılıb. O cümlədən, ağır və xüsusilə ağır cinayətlərin 100 faiz açılması təmin edilib. Təsnifatına görə, hesabat dövründə cinayətlərin 9-u ağır, 69-u az ağır, 38-i isə böyük ictimai təhlükə törətməyənlərdir. Qeyri-aşkar şəraitdə törədilən 64 cinayətin açılması 93,4 faiz təmin edilib ki, bu da ötən illə müqayisədə 11 faiz çoxdur. Mülkiyyət əleyhinə 32 cinayət törədilib, onlardan 24-ü açılıb. Qanunsuz saxlanılan 4 ədəd "TOZ-8" və 6 əl qumbaraları aşkarlanıb.




Məlumat üçün deyək ki, narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 31 cinayət qeydə alınıb. Onlardan 5-i satışla bağlıdır. Aşkar olunmuş faktlar üzrə 8 kiloqram 843 qram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 6 kiloqram çoxdur. "Xaş-xaş 2017" tədbirlər planına uyğun olaraq, aqrotexniki qaydada qulluq edilmiş 184 ədəd, yabanı halda bitmiş 180 ədəd ümumi çəkisi 91 kiloqram çətənə kolları məhv edilib.

Barələrində axtarış elan edilmiş 15 nəfərdən 13-ü tutulub, xəbərsiz itkin düşən 6 nəfərdən 5-i tapılıb.

Bu, xidməti fəaliyyətin çox qısa və rəqəmlərlə ifadə olunan nəticələridir. Ötən il şəxsi heyət maarifləndirmə tədbirlərini də əsirgəməyib, polis veteranları gənc həmkarları ilə birlikdə tədris müəssisələrində, əmək kollektivlərində görüşlər keçirib, proflaktiki söhbətlər aparıblar.



Hesabat ilində RPŞ-nin inzibati binası əsaslı təmir edilib. Səliqə-səhman hələ Şöbənin daxilinə keçməzdən hiss olunur. Binanın fasadı tam müasir standartlara uyğun üzlüklə üzlənib. Növbətçi hissə və xüsusi vasitələrin saxlanılma otaqları lazımi avadanlıqlarla təchiz olunub. Əməkdaşların normal çalışması üçün hər cür şərait yaradılıb. Müvəqqəti Saxlama Yeri bütün normalara cavab verir. İstiliyi fasiləsiz təmin etmək üçün müasir qazanxana quraşdırılib. Şöbənin yerləşdiyi ərazinin asfalt örtüyü yenilənib.



Söhbətimizin sonunda rəis, polis polkovniki Vüsal Şəbəndiyev onu da bildirdi ki, əldə olunmuş bu nəticələr həm də DİN rəhbərliyinin diqqət və qayğısının göstəricisidir. Şəxsi heyət ona olan inam və etibara bundan sonra da öz xidmətləri ilə cavab verəcək.

***Ç.Şıxverdiyev,***
***polis polkovnik-leytenantı***

# KARATEÇİMİZDƏN MÖHTƏŞƏM QƏLƏBƏ

**Fevralın 2-dən 4-dək Rusiyanın Soçi şəhərində karate üzrə Avropa çempionatı keçirilib. Milli komandamızın qatıldığı yarışda 44 ölkədən minə yaxın idmançı tatami üzərində öz qüvvəsini sınayıb. Ölkəmiz qitə çempionatında ön pillədə yer alıb.**




Milli komandanın tərkibində DİN İdman Cəmiyyətinin yetirməsi Hüseyn Alıyev də qələbə uğrunda mübarizə aparıb. Çəkisi 67 kiloqramadək olan idmançıların yarışında ölkəmizi təmsil edən H.Alıyev finala gedən yolda Niderland, Şotlandiya, Kosova, Bosniya və Herseqovina idmançılarına qalib gəlib. Həlledici görüşdə Macarıstan karateçisi ilə qarşılaşan idmançımız qitə çempionu olub.

H.Alıyevi yarışa hazırlayan DİN İdman Cəmiyyətinin Fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov yetirməsinin bu uğurunu şərh edərkən bildirdi ki, karateçimiz daha mötəbər yarışlara hazırdır və potensialı böyük gözləntilərə ümid verir. Məşqçi, həmçinin yetirməsinin bu ilin yayında Argentinanın paytaxtı Buenos Ayresdə Yeniyetmələrin Olimpiadasında iştirak edəcəyini qeyd edib.

***Zeyni Hüseynov***

# ÖMÜR VAR Kİ...

**Hələ ordumuzun yaranmadığı ilk vaxtlarda savaşın lap əvvəlində torpaqlarımızı, dinc əhalini qorumaq üçün polis əməkdaşları önə çıxdılar və qəhrəmanlıqlar göstərdilər. Belə igidlərdən biri də polis baş leytenantı Əhmədağa Səmədov idi.**

Sabirabad rayonunun Narlıq kəndində dünyaya göz açan Əhmədağa Aslan oğlu Səmədov ilk təhsilini Qasımbəyli kənd orta məktəbində alıb. Riqada hərbi xidmətdə olduğu iki il müddətində özünü nümunəvi əsgər kimi tanıdıb. Xidmətini başa vurub doğma el-obasına qayıdaraq Daxili İşlər Şöbəsinin nəzdindəki Mühafizə Bölməsində xidmətə başlayıb. 1988-ci ildə əvvəlcə Rayon Mühafizə Şöbəsində post komandiri, daha sonra sahə inspektoru vəzifəsində xidmətini davam etdirib.

Torpaqlarımıza düşmən təcavüzünün başladığı illərdə o da silaha sarılaraq ön cəbhəyə yollanıb. Oddan-alovdan keçib. 1991-ci il dekabr ayının 15-də düşmən xeyli canlı qüvvə və zirehli texnika ilə Xocavəndin Şayaq kəndinə hücum edərkən 33 yaşlı milis baş leytenantı 15 silahdaşı ilə birgə əsl qəhrəmanlıq göstərib. Bu qeyri-bərabər döyüşdə erməni hərbçiləri xeyli itki veriblər. Bu həm də qəhrəman həmkarımızın son döyüşü olub.

Əhmədağa Səmədov Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib. Narlıq kənd orta məktəbi onun adını daşıyır.

Fevralın 16-da Ə.Səmədovun anadan olmasının 60 illiyini dostları, döyüş yoldaşları onsuz keçirdilər. Xatirələrdən mərd, vətənpərvər paqondaşımızın vüqarlı çöhrəsi boylanırdı.

***Toğrul Nəsirli,***
***polis leytenantı***

# MARAQ DÜNYASI



### "ÖLÜMSÜZLÜK İÇKİSİ"

Alimlər aydınlaşdırıblar ki, Çinin ilk imperatoru Sin Şixuandi əbədi yaşamaq istəyirmiş və öz təbəələrinə ölümsüzlük iksiri tapmağı əmr edibmiş. Bu barədə məlumatı Sinxua Agentliyi yayıb.

Xunan əyalətində aparılan qazıntılar zamanı əbədi cavanlıq üçün "dərman" ixtirası ilə əlaqədar qədim sənədlər və 48 əşya aşkar edilib. Tapıntılar ölümsüzlük içkisi yaradılması haqqında imperatorun fərmanının hətta ucqar əyalət və kəndlərə də gedib çıxdığını göstərir.

"Belə fərmanın verilməsi və insanların həqiqətən də onu icra etməyə cəhd göstərməsi faktı göstərir ki, Sin Şixuandi nəqliyyat və rabitə vasitələrinin olmadığı bir vaxtda belə imperatorun istəyinin ölkənin hər yerinə çatdırılmasına imkan verən qanunverici və icraedici hakimiyyət yaradıbmış",- deyə arxeoloji qazıntının rəhbəri bildirib.

Sin Şixuandi eramızdan əvvəl 259-cu ildə doğulub və 210-cu ilədək ömür sürüb. O, Çinin bir-birinə düşmən olan altı əyalətini vahid dövlətdə birləşdirərək, özünü imperator elan edib.

Əvvəllər də arxeoloqlar bu böyük fatehin ölməzlik arzusunu təsdiqləyən sübutlar tapmışdılar. Güman olunur ki, imperator öz ömrünü uzatmaq üçün kinovardan (və ya civə sulfidi) istifadə edib. Ehtimal ki, məhz elə buna görə də o, 49 yaşında həyatını itirib.

Sin Şixuandi içərisində terrakot qoşun (keramikadan hazırlanmış 8100 döyüşçü fiquru) aşkar edilmiş sərdabəsi ilə məşhurdur. İmperatorun özünün məzarı isə hələ açılmayıb.

### XÜSUSİ XƏBƏRDARLIQ

Yaponiya polisi sürücüləri hərəkət istiqamətində işıqforun qırmızı işığının yanması barədə xəbərdar edən sistem hazırlayıb.Tokionun şimalında yerləşən Saytama prefekturasının polisi tərəfindən hazırlanan bu sistem ötən ilin dekabrından tətbiq olunmağa başlayıb. Sistem infraqırmızı mayakdan istifadə edərək, işıqfor barədə məlumatı avtomobildəki naviqasiya qurğusuna ötürür.

Avtomobilin yol kəsişməsindən təqribən 100 metr məsafədə olduğu zaman işıqforda qırmızı işıq yanırsa, bu zaman maşının naviqasiya displeyində xəbərdarlıq görünür.




Saytamanın rəsmi nümayəndələrinin bildirdiyinə görə, ötən ilin yanvarından noyabradək bu prefekturada sürücülərin işıqforun qırmızı işığının yanmasını vaxtında görməmələri səbəbindən 3 mindən çox yol-nəqliyyat hadisəsi baş verib.

### AVTOBUS EV

Böyük Britaniyada yaşayan gənc cütlük Tom və Kayli köhnə, yararsız avtobusdan təkər üzərində əsl ev düzəldiblər.



İyirmi üç ildir ölkə sakinlərini gəzdirən avtobus artıq bir müddət idi lazımsız əşya kimi "maşın qəbiristanlığı"na atılmışdı.

Avtobus ailəyə 1500 funt-sterlinqə başa gəlsə də, onun ev halına salınması üçün daha çox xərc çəkilib. İndi burada rahat yaşamaq üçün bütün zəruri şərait yaradılıb.

Avtobus-evdə Avropanın yarısını gəzən gənclər onu 12 min funt-sterlinqə sata biləcəklərini bəyan ediblər.

***Ş.Çingiz***

# İDMAN UĞURLARI...

### KARATEÇİMİZ BÜRÜNC QAZANDI

**Fevralın 16-dan 18-dək Dubayda "Karate-1 Premyer Liqa" turniri keçirilib.** Dünyanın ən güclü karateçilərinin yer aldığı bu yarışda Azərbaycan idmançıları da öz məharətini göstərib.

Millimizin heyətində təmsil olunan Əlahiddə Çevik Polis Alayının əməkdaşı Ayxan Mamayev çəkisi 84 kiloqramadək olan idmançılar arasında bürünc medal qazanıb.


Ayxan Mamayev


Firudin Dadaşov

### GƏLƏCƏK UĞURLARIN TƏMƏLİ BU GÜN QOYULUR

**Fevralın 14-dən 18-dək Azərbaycan Boks Federasiyasında yeniyetmə boksçuların paytaxt birinciliyi keçirilib.**

Bakının bütün idman klub və Cəmiyyətlərinin yetirmələrinin qatıldığı yarışda DİN İdman Cəmiyyətinin komandası da iştirak edib. Əməkdar məşqçi Yadigar Məmmədovun yetirmələri 7 medal qazanaraq ölkə birinciliyinə vəsiqə qazanıblar.

### CÜDOÇUMUZ VƏTƏNƏ MEDALLA QAYITDI

**Fevralın 17-18-də Avstriyada cüdo üzrə açıq qitə kuboku uğrunda yarış keçirilib.** Yarışda ölkəmizin yığma komandası da qələbə uğrunda mübarizəyə qoşulub. Millimizin heyətində təmsil olunan DİN İdman Cəmiyyətinin yetirməsi Firudin Dadaşov uğurla yarışaraq bürünc medal qazanıb.

### GÜCLÜLƏRLƏ BİR SIRADA

**Bu yaxınlarda boks üzrə Azərbaycan çempionatı keçirilib.** Boks Mərkəzində baş tutan çempionatda respublikanın bütün şəhər və rayonlarının klublarını, idman cəmiyyətlərini təmsil edən 39 komandanın 203 kişi boksçusu qatılıb.

Yarışda DİN İdman Cəmiyyətinin yetirmələri də öz güclərini sınayıblar. Çəkisi 56 kiloqramadək olan idmançılar arasında Ümid Rüstəmov finaladək irəliləyərək gümüş medala sahiblənib. Cəmiyyətin digər yetirmələri Qoşqar Səfərli, Gülhüseyn Ağazadə - Elşən Hüseynov yarımfinala qədər irəliləyib, bürünc medal əldə ediblər. Onlar müvafiq olaraq, 52, 91, +91 kiloqram çəki dərəcəsində öz qüvvələrini sınayıblar.

Qeyd edək ki, komandamızı yarışa İdman Cəmiyyətinin müəllimi, əməkdar məşqçi Yadigar Məmmədov hazırlayıb.

*Xəyalə Məmmədova,*
*Zeyni Hüseynov*

# ELAN

## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!

Azərbaycan Respublikası daxili işlər orqanları əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Nərimanov rayonu, 2036-cı məhəllədə (Ziya Bünyadov prospektində, «Koroğlu» metrostansiyasının yaxınlığında) kooperativ yolu ilə tikilən 13 mərtəbəli yaşayış binasında ***ilkin ödəniş 50 faiz olmaqla, 1 il müddətinə 1 kvadratmetri heç bir faiz tutulmadan 900 manata 1, 2, 3, 4 otaqlı mənzillər təklif edilir.***



**Mənzillərin sahələri:**
1 otaqlı – 70.63, 72.93 kvm;
2 otaqlı – 88.17, 89.21 kvm;
3 otaqlı – 152.72 kvm;
4 otaqlı – 177.18 kvm.

Həmin binada mənzil almaq istəyən əməkdaşlar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Əsaslı Tikinti İdarəsinə **(tel: (012) 408-81-25)** müraciət edə bilərlər.

**Qeyd: Mənzillərin dəyəri tikintinin sonuna qədər hissə-hissə ödənilməlidir.**

# ÜNVANINA YETİŞƏN MƏKTUBLAR

**Daxili İşlər Nazirliyinə hər gün onlarla təşəkkür məktubu gəlir. Hər gələn məktubdan bir nəfərin deyil, bir ailənin sevinci, həmkarlarımıza olan rəğbəti boy verir. Məktubları diqqətlə nəzərdən keçirib müəllifləri ilə əlaqə saxlayır, peşmizə, xidmətimizə dəyər verdiklərinə görə biz də öz növbəmizdə təşəkkürümüzü bildiririk. Və yeri gələndə haqqında təşəkkür ünvanlanan həmkarlarımızı da bu barədə məlumatlandırırıq ki, çəkdiyi zəhmətin, etdiyi yaxşılığın və xeyirxahlığının hədər getmədiyini görsün.**

Bir qrup Nizami rayon sakini 24-cü Polis Bölməsinin sahə inspektoru, polis baş leytenantı Elxan Əliyevin ərazidə yaşayan sakinlərlə mütəmadi görüşlər keçirməsini, üzləşdikləri problemlərə, onları narahat edən məsələlərə dərhal və qanunvericilik qaydasında reaksiya verməsini təşəkkür edirlər. Yazırlar ki, məhz onun təşəbbüsü və sakinlərin köməkliyi ilə Babək prospektindəki 95 nömrəli binanın bütün girişlərini nəzarətdə saxlayan təhlükəsizlik kameralarının quraşdırılması baş verə biləcək neqativ halların qarşısını almağa yönəlib.

Daha bir minnətdarlıq məktubunu şəhid övladı Mehdi Nemətli yazıb. O, DİN rəhbərliyinin şəhid ailələrinə göstərdiyi diqqət və qayğını, həmçinin onların problemlərinin həll edilməsi üçün həssaslıq nümayiş etdirdiyini xüsusi vurğulayır.

Yazır ki, mebel düzəltdirmək üçün Məhəmməd adlı şəxsə 600 manat veribmiş. O isə nə mebeli verib, nə də pulu geri qaytarıb. Həmin şəxs günü-günə satıb, yalan vədlər verib onu aldadıb. M.Nemətli bütün bunlara son vermək üçün Xətai Rayon Polis İdarəsinə müraciət edib. Polislər tərəfindən şikayət etdiyi şəxs müəyyən olunub və bir neçə gün keçməmiş pul qaytarılıb.

*Hafiz Təmirov,*
*polis mayoru*

# DİQQƏT!

**DİN-in əmri ilə Azərbaycan Polisinin 100 illik yubileyi ilə əlaqadar martın 15-dən aprelin 30-dək daxili işlər orqanlarının əməkdaşları arasında "Ən yaxşı polis sahə inspektoru", "Ən yaxşı polis sahə rəisi", "Ən yaxşı əməliyyat müvəkkili", "Ən yaxşı təhqiqatçı", "Ən yaxşı müstəntiq", "Ən yaxşı tağım komandiri", "Ən yaxşı polis nəfəri" müsabiqəsi keçiriləcək.**

**Nazirliyin orqan və hissələrinin rəisləri, nizami polis hissələrinin komandirləri xidmətdə fərqlənən, qüvvədə intizam tənbehi olmayan, aidiyyatı nominasiyalar üzrə yüksək peşə hazırlığına və xidmət sahəsi üzrə azı 3 il ümumi staja malik əməkdaşlar arasında ən layiqlisini seçib, onun barəsindəki xasiyyətnaməni xidməti, döyüş və fiziki hazırlıq göstəricilərini əks etdirən rəylə birlikdə Mərkəzi Müsabiqə Komissiyasına təqdim olunması üçün Baş Kadrlar İdarəsinə göndərməlidirlər.**

# ŞÜBHƏLƏR ÖZÜNÜ DOĞRULTDU

**Ev sahibi qapını açıb içəri girəndə gözlərinə inanmadı. Lələ köçüb, yurdu qalmışdı. Kimsə evə əməlli-başlı əl gəzdirmişdi.**

Bu ilin yanvar ayında Masallı RPŞ-yə Köhnə Alvadı kənd sakini Yusif Vəliyevin şikayət ərizəsi daxil oldu. Bildirilirdi ki, naməlum şəxs tərəfindən evdən iki xalça, televizor və digər əşyalar oğurlanıb.

Əməliyyat-axtarış qrupu kəndə gedərək zərərçəkənin evinə baxış keçirsələr də oğrunun izinə düşmək heç də asan olmadı. O, çox ustalıqla işləmiş, heç bir iz qoymamışdı.

İstintaqın gedişində bu əməli törədə biləcək şəxslərin siyahısı müəyyənləşdirildi, oxşar cinayət hadisələri bir daha götür-qoy edildi, hadisənin şahidi ola biləcək şəxslər, ətrafda yaşayan sakinlər sorğu-sual edildi və beləliklə, şübhəlilərin siyahısı yarandı. Onların ətrafında əməliyyat tədbirləri keçirildi. Bu arada bir nəfər daha çox diqqət çəkdi. Onun saxlanılması üçün əməliyyat tədbirləri hazırlandı.



Əvvəllər məhkum olunmuş Mirdaməd Dadaşov Masallı şəhərində «İsgəndərli körpüsü» deyilən ərazidə saxlanıldı. Üzərinə baxış keçirilərkən çəkisi 470 qram narkotik vasitə olan qurudulmuş marixuana aşkar edildi.

M.Dadaşov Masallı RPŞ-yə gətirildi. Tutarlı dəlillər və sübutlar qarşısında o, tutduğu əməli etiraf etdi. Amma nə fayda…

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

# DÜNYAYA PƏNCƏRƏ

Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatında beynəlxalq polis əməkdaşlığı mərkəzinə 32 ölkədən asayiş keşikçiləri gələcək. Qurumun tərkibi mundialın iştirakçısı olan 32 ölkənin və 2022-ci ildə dünya çempionatına ev sahibliyi edəcək Qətərin nümayəndələrindən təşkil olunacaq. İyunda Rusiyaya digər ölkələrdən təxminən 150 polisin gələcəyi gözlənilir.

*****

***Gürcüstan DİN-nin "112" Departamenti müasir texnologiyalar əsasında qurulmuş "112" mobil aplikasiyası layihəsini yaradıb. Gürcüstan ərazisində olan hər bir şəxs "112" mobil aplikasiyasını yükləyə və istifadə edə bilər. Aplikasiyanın əsas üstünlüyünü vətəndaşın harada olduğunu dərhal müəyyən etməsi təşkil edir. Onun "112"-yə səssiz həyacan siqnalını (SOS) göndərmək və operatorla yazışma (chat) funksiyası da var. Bunlardan vətəndaşlar onların danışmağa imkanları olmadığı zaman istifadə edə bilərlər.***

***Aplikasiya pulsuzdur, IOS və Android platformaları dəstəyi var gürcü, eləcə də inglis və rus dillərində əlyetərlidir.***

***Bənzər aplikasiya dünyanın yalnız 13 ölkəsində tədbiq olunur.***

*****

Braziliyanın Rio-de-Janeyro şəhərində kloun geyimli 110 nəfər saxlanılıb. Bu barədə «Globo» telekanalı məlumat yayıb. Onlar şəhərdə davam edən karnaval zamanı oğurluq edərkən «isti izlər»lə tutulublar.

Hadisə şəhərin ofis və inzibati binalar yerləşən mərkəzi hissəsində qeydə alınıb. Asayiş keşikçiləri şübhəli şəxslərin üzərinə baxış zamanı tapança, patron, qumbara, həmçinin qarət edilmiş əşyalar aşkar ediblər.

Saxlanılan «kloun»ların polis bölməsinə aparılması üçün üç avtobus lazım olub.

Onların karnaval geyimləri və qrimdə olmasına baxmayaraq, bir neçə nəfər qarətçiləri tanıyıb.

*****

***İranın Sistan və Bəlucistan vilayətində 3 tona yaxın narkotik maddə müsadirə edilib. Vilayətin polis idarəsinin rəisi Məhəmməd Qənbəri jurnalistlərə bildirib ki, həyata keçirilən əməliyyat nəticəsində qaçaqmalçılıq yolu ilə İrana gətirilən 2 ton 780 kiloqram narkotik müsadirə olunub və 5 nəfər həbs edilib.***

***Polis rəisinin sözlərinə görə, narkotik maddə qaçaqmalçıları ilə silahlı toqquşmada bir polis yaralanıb.***

***Bundan başqa, Mehran şəhərində aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində 540 kiloqram narkotik maddənin qanunsuz saxlanılması aşkar edilib. Polisin fikrincə, narkotik maddə satış üçün saxlanılırmış.***

*****

İspaniyada Mərakeşdən Avropa ölkələrinə narkotik vasitələrin daşınması ilə məşğul olan beynəlxalq qruplaşma saxlanılıb. Əməliyyat nəticəsində 16 nəfər tutulub. Saxlanılan şəxslər arasında İspaniya, Böyük Britaniya və İsveçrə vətəndaşları var.

Qruplaşma üzvləri narkotik satışından əlavə çirkli pulların yuyulması, saxta sənədlərin hazırlanması, nəqliyyat vasitələrinin oğurlanması və digər cinayətlərdə şübhəli bilinirlər.

Əməliyyat zamanı 600 kiloqrama yaxın narkotik vasitə, silah və 360 min avro müsadirə edilib.

*C.Natiq*

## Fevralın 14-dən 20-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 750 cinayət qeydə alınmış, onların 136-sı «isti izlər»lə açılmışdır.
- Axtarışda olduğuna görə 182 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 21 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 19 nəfər ölmüş, 18 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 69 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 193 nəfər saxlanılmışdır.

Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov və şəxsi heyəti Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin rəisi müavinləri Oqtay Məmmədov və Məhərrəm Qafarov Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səfərbərlik İşləri və Mülki Müdafiə Şöbəsinin rəisi Yusif Mehdiyev və şəxsi heyəti Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanova əzizi
**ANAR MİRZƏYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Elsevər Aslanova əzizi
**ANAR MİRZƏYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Abdul Zərgərli və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN A. N. Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN 1 nömrəli Poliklinikasının rəisi Səadət Həsənova və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt ŞPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səfərbərlik İşləri və Mülki Müdafiə Şöbəsinin rəisi Yusif Mehdiyev və şəxsi heyəti iş yoldaşları Samir Səfərova atası
**YAQUB SƏFƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Elsevər Aslanova əzizi
**ANAR MİRZƏYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Goranboy RPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabran RPŞ-nin rəisi Əli Mərdanov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Seyfulla Əzimova əzizi
**MƏCİD KƏRİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti iş yoldaşları Sahib Səfərova əzizi
**VƏYULLA kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin şəxsi heyəti Şöbə rəisi Elsevər Aslanova əzizi
**ANAR MİRZƏYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.238
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00